# “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 aprel tarixli 138 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 334** **Bakı şəhəri, 7 noyabr 2025-ci il**

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi haqqında Əsasnamənin, Nazirliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin ümumi say tərkibinin və Nazirlikdə ali hərbi rütbəli vəzifələrin siyahısının təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 54 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 iyun tarixli 417 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 aprel tarixli 138 nömrəli Qərarı(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (II kitab), maddə 425) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"ndə dəyişikliklər təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu Qərarın əlavəsinin 20-ci və 43-cü hissələri,1.1-ci, 1.2-ci, 1.5-ci, 13.3-cü, 15.1-ci, 15.2-ci, 15.3-cü, 15.6-cı, 15.8-ci, 15.9-cu, 15.10-cu, 42.1-ci, 47.1-ci, 48.2-ci, 49.2-ci, 54.1-ci, 65.2-ci və 65.4-cü bəndləri 2025-ci il avqustun 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

Azərbaycan.- 2025.- 13 noyabr (№241).- S.4.